# Unudulmaz şəhid - Milli Qəhrəman



***Azərbaycanın hər yerində olduğu kimi, İsmayıllı rayonunda da Şəhidlər Xiyabanı, kəndlərdəki şəhid məzarları əhalinin and yeri və ziyarətgahına çevrilmişdir. Vətən uğrunda həlak olmuş Mehdi Abbasovun da uyuduğu Şəhidlər Xiyabanı əhalinin ziyarət etdiyi məkandır.***

Azərbaycanın Milli Qəhrəmanı Abbasov Mehdi Yusif oğlu 1958-ci ildə İsmayıllı rayonunun Yeniyol kəndində anadan olub. Erməni millətçilərinin təzyiqinə məruz qalan ailəsi 1977-ci ildə Qazaxstana köçərək Çimkənt əyalətindəki Tülkübaş rayonunun Kulan kəndində məskunlaşmışdır. Hərbi xidmətini yerinə yetirdikdən sonra Qaraqanda şəhərində Pedaqoji İnstitutun ibtidai-hərbi hazırlıq və bədən tərbiyəsi fakültəsini bitirmişdir. Kənd məktəbində müəllimlik etmişdir. 1985-ci ildə Mehdi «SSRİ idman ustası» adını almışdır. 1989-cu ildə o, Daxili İşlər orqanlarında işləməyə başlamışdır. Milis baş leytenantı idi.

1989-cu ildə Qazaxstan və Özbəkistanda məshəti türklərinə qarşı törədilən cinayətlər Mehdinin də ailəsini Azərbaycana gəlməyə məcbur etmişdir. Onlar İsmayıllı rayonunun Ruşan kəndində məskunlaşmışlar. Mehdi 1991-ci il iyun ayının 28-dən Azərbaycan Respublikası DİN-də işləməyə başlamışdır. Həmin vaxtlarda ermənilər Azərbaycanın torpaqlarını işğal edir, əhalini doğma torpaqlarından çıxarır, kəndlərimizi xarabazara çevirirdilər. Buna görə də Mehdi Abbasov xalqını sevən bir insan kimi daxili xidmət qoşunlarının tərkibində vətənin müdafiəsinə qalxmışdır. O, bir sıra döyüşlərdə qəhrəmanlıqlar göstərmiş, qeyri-bərabər döyüşlərin birində həlak olmuşdur.

Respublikamızın suverenliyi və ərazi bütövlüyümüzün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi igidlik və şücaətə görə Azərbaycan Respublikası Prezidentinin 1992-ci il iyun tarixli fərmanı ilə Abbasov Mehdi Yusif oğluna ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdir. O, Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

İsmayıllı şəhərindəki küçələrdən birinə Mehdi Abbasovun adı verilmişdir. Onun ruhu ailəsinin yaşadığı Ruşan kəndində dolaşır.

Ruşan kəndi indii Mehdiabad adlanır.

**Vəsidə Mustafaqızı**

**Yeni təfəkkür.- 2022- ci il.- 22 aprel.- S. 4.**